**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ILHAMƏ CƏLAL QIZI QƏSƏBOVA**

# XX ƏSR QAZAX AŞIQ MÜHITI

**5719.01 – Folklorşünaslıq**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2014**



**Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Aşıq yaradıcılığı" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Cəlal Mirzağa oğlu Məmmədov**
*filologiya üzrə elmlər doktoru*

**Rəsmi opponentlər:** **Seyfəddin Gülverdi oğlu Rzayev**
*filologiya üzrə elmlər doktoru, dosent*

**Rəsulov Rüstəm Kamal oğlu**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı müəssisə:** Bakı Dövlət Universitetinin "Azərbaycan şifahi xalq ədəbiyyatı" kafedrası

**Müdafiə** "_30__" _05__ 2014-cü il saat "__"_-da Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən FD.01.201 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" __________ 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**filologiya üzrə fəlsəfə doktoru,**
**dosent:**
***Afaq Xürrəm qızı Ramazanova***

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Dünyanın ən unikal poetik sənət hadisələrindən olan aşıq sənəti 28 sentyabr – 2 oktyabr 2009-cu il tarixində Qeyri-maddi mədəni irsin qorunması Komitəsinin 4-cü sessiyasının yekun qərarına əsasən YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu qərarla Azərbaycan aşıq sənətinin mədəni irsin ən qədim nümunələrindən biri olduğu beynəlxalq səviyyədə bir daha təsdiqlənmişdir. Aşıq sənəti sinkretizmi ilə sənətkarlığın ən bariz göstəricisi sayılır. Özündə söz, musiqi və hərəkəti harmonik şəkildə birləşdirən aşıq sənəti çoxəsrlik tarixə, əsrlərlə cilalanıb təkmilləşən zəngin ənənəyə malikdir. Əsrlər keçdikcə nəsildən-nəslə ötürülərək bu günümüzə gəlib çıxan aşıq sənəti xalqın ruhunu, zövqünü oxşayır, dövrün ictimai-siyasi abhavasını özündə əks etdirir.

Təbii ki, aşıq sənətinin qorunması, gələcək nəsillərə ötürülməsi bu sənətin araşdırılmasını hər zaman aktual edir və son zamanlar aşıq sənəti ilə bağlı araşdırmaların artması da bununla əlaqədardır. Aşıq ədəbiyyatı xalqın həyatı ilə sıx bağlı olduğundan hər dövrdə zənginləşmiş, kamil sənət əsəri olmuş və bu günə qədər müxtəlif mərhələlər keçirmişdir. Şifahi mədəniyyət hadisəsi kimi aşıq sənəti xalqımızın milli duyum və düşüncə tərzini, saz (musiqi) və söz birliyini özündə yaşadan, klassik ənənəyə bağlı yaşam fəlsəfəsidir. Aşıq ədəbiyyatını öyrənmək və onun çoxsahəli fəaliyyətini, zəngin repertuarını aşkarlamağın əsas yolu bu sənətin regional-mədəni və sosial mühit özünəməxsusluqlarına xüsusi diqqət yetirmək olduqca aktual məsələdir. Ona görə də Azərbaycan aşıq yaradıcılığının zəngin bir qolunu təşkil edən Qazax aşıq sənətinin öyrənilməsi folklorun və əsasən də aşıq ədəbiyyatının tamlığını ortaya çıxarmaqda özünəməxsus rol oynayacaqdır.

Aşıqların yaradıcılığının regional və lokal kontekstlərdə öyrənilməsi folklorşünaslığın aktual problemləri sırasına daxildir. Regional və lokal mühit, ayrı-ayrı sənətkarların yaradıcılıqlarının fərdi şəkildə tədqiqi bütövlükdə mədəni sistemin mükəmməl öyrənilməsi üçün zəruridir.

Özünəməxsus ənənəsi, yaradıcılıq çalarları, tarixi inkişaf yolu olan Qazax aşıq mühiti həm coğrafi, həm də etnik-mədəni substratı baxımından Azərbaycan aşıq sənətində vacib qollardan biri olduğu üçün öyrənilməsi də əhəmiyyətlidir. Azərbaycan aşıq sənətinin



inkişafını şərtləndirən amillərdən biri kimi Qazax aşıq mühiti zəngin sənət ənənələrini nəsildən-nəslə ötürərək öz aktuallığını müasir dövrə qədər gətirib çıxarmışdır. Məhz bunun nəticəsidir ki, Qazax aşıq mühitində yaradıcılıqları, ideya-estetik, sənətkarlıq xüsusiyyətləri ilə bir-birindən fərqlənən ustad aşıqlar və el şairləri yetişmişdir. Bir sıra səciyyəvi xüsusiyyətləri ilə seçilən Qazax aşıq mühitinin və bu mühitin görkəmli sənətkarlarının, ustad aşıqlarının yaradıcılığının öyrənilməsi həm folklorun, həm də konkret olaraq aşıq ədəbiyyatının daha dolğun elmi mənzərəsini yaratmaq üçün vacibdir.

**Dissertasiyanın obyekti və predmeti.** Tədqiqat işinin obyekti Qazax aşıq mühiti və XX yüzildə Qazax aşıqlarının poetik yaradıcılıq qoludur. Dissertasiyanın əsas predmeti indiyə qədər monoqrafik planda araşdırılmayan Qazax aşıq mühitinin tarixi inkişaf baxımından formalaşan özünəməxsus repertuarı, ustad-şagird münasibəti, sənətkarlıq məsələləri, Qazax aşıqlarının mövzu dairəsi, janr spesifikası və bütün bunların filoloji yöndən öyrənilməsidir. Bununla bərabər, Qazax aşıqlarının ifaçılıq yolu, ənənəvi sənət formalarının yaşadılması, bir sözlə, Qazax aşıq mühitinin fərqliliklərini, özünəməxsusluqlarını tədqiq etmək də işin predmetini təşkil edir. Qazax aşıqlarının sənətkarlıq xüsusiyyətləri, Göyçə və Borçalı aşıq mühitinin sənət əlaqələri, mövzu-janr xüsusiyyətləri və ustad aşıqların dastan yaradıcılığının poetik xüsusiyyətləri də tədqiqat işinin predmetini təşkil edir.

**İşin məqsəd və vəzifələri.** Tədqiqat işində əsas məqsəd XX əsr Qazax aşıq mühitinin formalaşma və inkişaf yolunu öyrənməklə, Qazax aşıqlarının və el şairlərinin yaradıcılığının səciyyəvi cəhətlərini müəyyənləşdirməklə konkret olaraq ustad aşıqların və el şairlərinin simasında Qazax aşıq mühitinin özünəməxsusluğunu aşkarlamaq, onun ədəbi-estetik məzmununu, funksiyasını və elmi-nəzəri dəyərini müəyyənləşdirməklə XX əsr Azərbaycan aşıq sənətinin inkişafında rolunu üzə çıxarmaqdır. Dissertasiyada qarşıya qoyulan əsas məqsədə çatmaq üçün aşağıdakı konkret vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– aşıq mühiti kontekstində Qazax aşıqları və el şairlərinin özünəməxsusluğunu müəyyənləşdirməklə onların fərdi xüsusiyyətləri üzərində durmaq;

– Qazax aşıqlarının Gəncəbasar aşıq mühitinin təşəkkülündə rolunu müəyyənləşdirmək və Qazax aşıq mühitinin formalaşmasını göstərmək;

– Qazax aşıqları və el şairlərinin yaradıcılığının mövzu dairəsini və janr xüsusiyyətlərini müəyyənləşdirmək;

– Qazax aşıqlarının klassik poetik ənənələrini müəyyənləşdirmək və bunu onların fərdi bioqrafik kontekstində araşdırmaq;

– Qazax aşıq və el şairlərinin yaradıcılığında dini şeirlərin təhlili yoluyla onların Allaha inamını araşdırmaq;

– aşıq və el şairlərinin yaradıcılığının mövzu dairəsini müəyyənləşdirmək;

– ustad-şagird münasibətinin müasir dövrə qədər qorunub saxlanılmasını aşkarlamaq;

– ustad aşıqların yaratmış olduqları aşıq havalarının, sənətkarlıq xüsusiyyətlərinin səciyyəvi cəhətlərini müəyyənləşdirməklə və Qazax aşıq mühitinin regional özəlliklərini təyin etməklə Azərbaycan aşıq poeziyası haqqında elmi təsəvvürləri genişləndirmək;

– Qazax aşıqlarının yaradıcılığının dil-üslub xüsusiyyətlərini öyrənmək;

– Qazax aşıqlarının məxsusi saz havacatlarını araşdırmaq;

– Qazax aşıqlarının dastan yaradıcılığını təhlil etməklə XX yüzildə dastançılığın ənənəvi, özəl, fərqli və oxşar cəhətlərini aşkarlamaq;

– dastan və nağıl-dastan yaradıcılığını üzə çıxarmaq;

– aşıq və el şairlərinin yaradıcılığında aşıq şeir növlərini araşdırmaq;

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Son dövrlərdə Azərbaycan folklorşünaslığının qazandığı elmi-nəzəri nailiyyətlər, müddəalar, aşıq sənətinə tarixi-obyektiv qiymət verilməsi prinsipi dissertasiyanın metodoloji əsaslarını təşkil edir. Dissertasiya işində müqayisəli metod, təsviri təhlil əsas götürülmüş, dünya və Azərbaycan elminin nailiyyətləri nəzərə alınmışdır.

**İşin elmi yeniliyi.** Araşdırmanın elmi yeniliyi Qazax bölgəsinin ilk dəfə ayrıca bir mühit kimi tədqiq olunması, aşıq və el şairlərinin yaradıcılıqlarının monoqrafik planda tədqiqata cəlb olunması ilə şərtlənir. Təəssüf ki, indiyə qədər Qazax aşıq mühiti ayrılıqda tədqiqata cəlb olunmamışdır. Gəncəbasar aşıq mühitinin tərkibində təqdim edilən Qazax aşıq mühiti coğrafi baxımdan iki mühitlə – Borçalı və Göyçə aşıq mühitləri ilə sıx yaradıcılıq əlaqəsində inkişaf edərək daha da təkmilləşmişdir. Ümumilikdə, Qazax aşıq yaradıcılığı geniş şəkildə öyrənilməmişdir. Aşıq Canallı Məmməd, Aşıq Məmmədyar Eminov, Mirzə Səməd, Çoban Əfqan, Miskin Əli, Aşıq Hüseyn Sarıyev, Aşıq Hüseyn Piriyev, Aşıq Ədhəm Ərəbov, şair Şeyda Əziz, Aşıq Məhəmməd Qocayev, Aşıq Avdı, Aşıq Bəhrəm, şair Hacı Qaracayev, şair Qulu Məşədiyev, şair Temraz Novruzov, Aşıq Ayaz Zülfüqarov, Aşıq Şəmistan Dərgahquliyev, Aşıq Zəkəriyyə Mehman və onlarla ustad aşıqların, el şairlərinin yaratdıqları sənət inciləri demək olar ki, lazımi səviyyədə öyrənilməmişdir.



Bu mənada XX əsr Qazax aşıq mühitinin ustad aşıqlarının və el şairlərinin yaradıcılığı mövzu və elmi yeniliyi baxımından hər zaman tədqiq edilməyə möhtacdır. Azərbaycan aşıq yaradıcılığını tarixi baxımdan yaşadan, aşıq şeir şəkillərində yenilik edən, özünəməxsus saz havaları yaradan, dastanlar və nağıllar qoşan Qazax aşıqlarının, el şairlərinin həyatını və yaradıcılığının elmi baxımdan öyrənilməsinə ehtiyac vardır. Qazax aşıqlarının yaradıcılıqları indiyə qədər müstəqil tədqiqat mövzusu olmayıb və elmi dövriyyədən kənarda qalıb. Bu baxımdan XX əsr Qazax aşıqları və el şairlərinin sənətkarlıq xüsusiyyətlərini öyrənmək dissertasiyanın əsas elmi yeniliyidir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Bu dissertasiya işindən ali məktəblərin folklor, orta məktəblərin ədəbiyyat dərsliklərinin aşıq sənəti ilə bağlı bölmələrinin hazırlanması üçün istifadə etmək olar. Ali məktəblərin filologiya fakültələrində aşıq sənətinə dair xüsusi kursların tədrisi zamanı da bu tədqiqatdan elmi vəsait kimi istifadə etmək mümkündür.

**Tədqiqatın aprobasiyası.** Təqdim olunan dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda işlənib hazırlanmışdır. Tədqiqatın əsas müddəaları müəllifin konfrans və seminarlardakı məruzələrində, müxtəlif elmi məcmuələrdə, o cümlədən xaricdə çap olunmuş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın "Əlavələr" bölməsində vaxtilə Qazaxda yaşayıb-yaratmış və bu gün də fəaliyyət göstərən aşıq və el şairlərinin siyahısı xronoloji ardıcıllıqla təqdim edilmişdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, işlənmə dərəcəsi müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyindən, metod və mənbələrindən, nəzəri və praktik əhəmiyyətindən bəhs edilir, işin aprobasiyası və quruluşu haqda məlumat verilir, mövzunun tədqiqi vəziyyətinə diqqət yetirilir.

Dissertasiyanın üç yarımfəsildən ibarət olan birinci fəsli "**Qazax aşıqlarının Gəncəbasar aşıq mühitinin təşəkkülündə rolu"** adlanır. "*Aşıq mühiti kontekstində Qazax aşıqları və el şairlərinin özünəməxsusluğu"* adlanan birinci yarımfəsildə Qazax aşıqlarının Gəncəbasar aşıq mühitinin tərkib hissəsində ayrıca bir mühit olaraq özəlliyi, sənətkarlıq xüsusiyyətləri, ayrı-ayrı ustad aşıqların və el şairlərinin həyat bioqrafiyasının öyrənilməsi sahəsində Azərbaycan folklorşünaslığında, xüsusən son iyirminci yüzilliyin sonlarında görülən işlərə ümumi nəzər salınmışdır. Göstərilmişdir ki, Qazax aşıq mühitində həyat və sənət bioqrafiyasının dərindən araşdırılmasına ehtiyac olan Qazax aşıq və el şairləri çoxdur. Məlumdur ki, Qazax mahalı şərti olaraq Gəncəbasar aşıq mühitinin tərkib hissəsinə daxil edilmişdir. Nəzərə alsaq ki, bu mahalın zəngin folklor nümunələri, coğrafi baxımdan iki – Göyçə və Borçalı aşıq mühitlərinin sənət əlaqəsi ilə formalaşıb, onda Qazax aşıqlarının yaradıcılığında, ifa tərzində bu iki mühitin sənət əlaqəsinin sintezi ilə qarşılaşmış olarıq. Qazax aşıqlarının ifaçılıqda yüksək peşəkarlıq qabiliyyəti nümayiş etdirməklə bərabər, el şairləri də poetik yaradıcılıqda özlərini sınamışlar. Miskin Əli, Çoban Əfqan, Mirzə Səməd, Canallı Məmməd, Ağköynəkli Məmmədyar, Ədhəm Ərəbov, Hacı Qaracayev və başqalarını göstərmək mümkündür. Aşıq Avdı, Aşıq Məhəmməd kimi saz çalıb məclis apara bilməyən el şairlərinin yaradıcılıqları da diqqəti cəlb edir. Miskin Əlı, Çoban Əfqan, Hacı Qaracayev, Şair Temraz, Şair Qulu, Şair Cəlil, Şair Mustafa, Şair Səyyad, Alı Baba və b. kimi şairlər demək olar ki, şeirlərini saz pərdələri üstündə yazıblar. Həm də bu şeirlər aşıqlıq ənənəsi üzərində şəkilləndiyindən onları aşıq yaradıcılığı kontekstində öyrənmək daha doğrudur.

Regional və lokal mühitə məxsus ayrı-ayrı sənətkarların yaradıcılığının fərdi şəkildə tədqiqi bütövlükdə Azərbaycan mədəni sisteminin mükəmməl öyrənilməsi üçün zəruri şərt olaraq bu fəsildə



öz əksini tapmışdır. Bu baxımdan Qazax aşıq mühitinin və bu mühitin görkəmli sənətkarlarının yaradıcılığının öyrənilməsi də həm folklorun həm də konkret olaraq aşıq ədəbiyyatının gerçək elmi mənzərəsini yaradıb, gələcək nəsillərə ötürmək üçün vacibdir. Qazax mahalı deyəndə ilk növbədə saz yada düşür bu mahal sazın-sözün beşiyi sayılır. Mayası sazdan-sözdən tutulan, saz havasına, söz müdrikliyinə güvənən Qazaxda bədii-estetik fikrin qaynaqları cilalanıb büllurlaşan müqəddəs xalq inamlarından, bayramlardan, adət-ənənələrdən, zəngin folklordan cilalanaraq günümüzə qədər gəlib çıxmışdır. Son zamanlara qədər, Qazax mahalında toyları və məclisləri aşıqlar idarə edərdi. Onların xüsusi məclisi qurular, ibrətamiz fikirlər səslənər, dastanlar danışar, aralarında deyişmələr yaradar, sonda bir aşıq digərini bağlayardı. Əsl sınaq meydanı olardı. Toylar hətta üç, yeddi bəzən qırx gün çəkirmiş. Deyilənə görə elə aşıqlar olub ki, ayaqlarını zərblə yerə vurub, səsini zilə çəkəndə lampalar titrəyib sönərmiş. Hətta el arasında belə deyirlər ki, zil səsi ilə lampanı söndürən ustad aşıq Ağköynəkli Aşıq Məmmədyar (Eminov Məmmədyar) olub. Qazax aşıqlarının özünəməxsusluqlarından biri də dini bayramlara, Kərbəla müsibətinə hörmətlə yanaşmalarıdır. Məsələn, Qazax aşıqları Məhərrəmlik ayında sazın simlərini sökərmişlər ki, birdən barmaqları simə toxunar. Qazax aşıqlarının digər özəlliyi də bəlli mövzulara, bəlli janrlara daha çox üstünlük verməleridir ki, bu problem dissertasiyanın müvafiq fəsillərində araşdırılmışdır.

Birinci fəslin ikinci yarımfəsli "*Göyçə aşıq mühiti ilə sənət əlaqəsi*" adlanır. Burada Qazax aşıq mühitinin Göyçə aşıq mühiti ilə sıx sənət əlaqələrindən danışılır, Gədəbəy, Kəlbəcər bölgələrinin aşıq sənəti ilə əlaqələrinə də toxunulur.

Prof. M.Qasımlı yazır: "Göyçə aşıq mühiti 1988-ci ildə Azərbaycan türklərinin zorla dədə-baba yurdlarından çıxarılması nəticəsində dağılmaq məcburiyyəti qarşısında qalmışlar. Qaçqınlıq, didərginlik məşəqqətləri çəkən Göyçə sənətkarları pərakəndə şəkildə Gəncə, Şəmkir, Daşkəsən, Şamaxı və Bakı ərazilərində məskunlaşmışlar".[1] Bu yarımfəsildə Qazax bölgəsində 1988-ci ildən öncə yəni 1905-ci illərdən ermənilərin Azərbaycan türklərini çıxartdıqları dövrdən Göyçədən məcburi köçüb yaşayanların çoxluğu və elə bu səbəbdən də Qazax və Göyçə mahalının adət-ənənəsinin,

[1] Qasımlı M. Ozan aşıq sənəti. Bakı: Uğur, 2003, s.92

müəyyən yaşam tərzinin, dialektlərin bir-birinə qaynayıb qarışdığı izah edilmişdir. Göyçə-Qazax aşıq mühitlərinin bir çox xüsusiyyətlərini bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir. Çünki ərazi etibarilə yaxın olan Qazax və Göyçə tarix boyu saz-söz sənəti ilə eyni ənənələr üzərində formalaşmış inkişaf etmişdir. Göyçə aşıq mühiti inzibatı ərazi baxımından da ona yaxın olan bölgələri əhatə etmiş və bunun nəticəsində Qərb aşıq mühitinin, eləcə də Qazax mahalının bir hissəsində formalaşan ustad sənətkarlar yetişmişdir. Tədqiqatda Qazax-Göyçə bölgəsinin aşıq sənətinin eyni ənənələr üzərində inkişaf edərək, bu bölgələrin saz-söz sənəti daim vəhdətdə olduğu da göstərilmiş, qeyd edilmişdir ki, Qazax mahalı coğrafi-ərazi baxımından iki hissədə inkişaf etmişdir. Bir hissəsi yəni I-II Şıxlı kəndi, İncə dərəsinin üç kəndi – Qaymaxlı, Kəmərli, Aslanbəyli və Daşsalahlı kəndləri Borçalı aşıq mühitinin, Qazaxbəyli, Çaylı, Canallı, Ağköynək kəndləri (yaxın keçmişdə – Ağstafa Qazağın tabeliyində olan dövrlərdə Ağstafanın kəndləri də bu siyahıya daxildir) Göyçə aşıq mühitinin mövqeyindən inkişaf edirdi. Bunlar əsas verir deyək ki, Qazax-Göyçə aşıq yaradıcılığı ayrılmaz olduqları üçün həm də burada el sənətkarları və ustad aşıqların yetişməsində həmin bağlılıq mühüm rol oynamışdır. Aşıq Məmməd (Canallı Məmməd), Aşıq Məmmədyar Eminov, Aşıq Hüseyn Sarıyev, Aşıq Hüseyn Piriyev, Aşıq Ədalət Nəsibov, Aşıq Cəfər Eyvazov, Aşıq Şəadət Gülməmmədov Göyçə aşıq mühitinin yetirmələridir.

XX əsrdə Qazax bölgəsinin aşıq və el şairləri günü-gündən daha da dərinləşir, aktual mövzulara toxunurlar. Bu bölgə coğrafi baxımdan bir çox sənət məkanları ilə həmsərhəddir, desək daha doğru olar. Borçalı, Göyçə, Tovuz, Gədəbəy kimi bölgələrin tam ortaq bir hissəsi olan Qazax hərtərəfli inkişaf etmişdir. Əslində buranı mərkəz də saymaq olar. Hətta 1927-ci il may ayının 1-də Qazaxda aşıqlar konfransı da keçirilir. Tovuz bölgəsindən başda Bozalqanlı Hüseyn olmaqla, ustad aşıqlardan Aşıq Mirzə Bayramov, Aşıq Əsəd Rzayev, Aşıq Məmmədyar da (Ağköynəkli) bu konfransda iştirak ediblər. Hətta Göyçə mahalından ustad Aşıq Növrəs İman da bu konfransda iştirak etmək üçün Qazağa gəlmişdir. Deyilənə görə, böyük coşğu ilə keçirilən bu konfransda ustad Aşıq Növrəs İman buyurub ki, ay Söyün əmi (Hüseyn Bozalqanlı) bu gün Qazağa tərif deməsəm olmaz. Cavabında Aşıq Söyün – “buyur, oğul” deyib:



Bir mayın günündə, oldu bir parad,
Bu sövqə baxanlar tamam oldu mat.
Alsınlar nəzərə qalmasın həsrət,
Gəlifdi Növrəs İman Qazağa.[2]

Bu ikitərəfli sənət əlaqələri Qazax aşıqlarının yaradıcılığında spesifik xüsusiyyətlər yaratmışdır. M.Allahmanlı yazır ki, “Qazax aşıq yaradıcılığı Göyçə, Tovuz və Borçalı aşıq mühitləri ilə təmasda daha çox uğur qazanmışdır. Məsələn T.Miralay ustad aşıq Ələsgərin Qazağa gəldiyini söyləyir. Sonra müəllif ustad aşığın 1924-cü ilədək Gəncə və Qazax qəzalarında dəfələrlə səfərdə olduğunu yazır. Eyni zamanda, Ağ Aşığın və Aşıq Alının əsərlərindən aydın olur ki, onlar da Qazaxda olmuş, heç şübhəsiz ki, məclislər keçirmişlər. Bu təmaslarda Qazax aşıq yaradıcılığının özünün spesifik xüsusiyyətləri yaranmışdır. Burada balabansız məclis aparan aşıqlarla yanaşı, balabanla da məclis aparan aşıqlara da təsadüf edilir. Başqa bir tərəfdən Qazax aşıq sənətində yaradıcı aşıqlar deyil, peşəkar aşıqlar çoxluq təşkil edirdi. Çox təəssüf ki, onların çoxunun adı bizim üçün naməlum qalmışdır”.[3]

Birinci fəslin ikinci yarımfəsli "*Borçalı aşıq mühiti ilə sənət əlaqəsi”* adlanır. Azərbaycan aşıq sənətinin aparıcı qollarından birini təmsil edən Qazax və Borçalı sənətkarları zəngin ənənələri, ifaçılıq tərzi ilə eyni mühitin nümayəndələri olublar. Müxtəlif dövrlərdə bu mahalın aşıq sənətini paylaşan bölgələr olan Borçalı, Göyçə, Şəmşəddil (Tovuz), Gədəbəy, aşıqlardan Aşıq Canallı Məmməd, Aşıq Məmmədyar, Mirzə Səməd, Şair Temraz, Aşıq Avdı, Aşıq Məhəmməd, Aşıq Ədhəm Ərəbov, Şeyda Əziz, Miskin Əli, Çoban Əfqan, Aşıq Cəlal Qəhrəmanov, Aşıq Ayaz Zülfüqarov, Aşıq Kərəm Nəsibov, Aşıq Yəhya Məmmədov, Aşıq Zəkəriyyə Mehman və s. aşıq sənətini qoruyub saxlayıblar. Tədqiqatın bu hissəsində Borçalı aşıqları ilə Qazax aşıqlarının sənət əlaqələrindən danışılmışdır. Qazax mahalının aşıqlarının müəyyən dərəcədə formalaşmasında və inkişafında Borçalı aşıq mühitinin rolunun olduğu və ümumilikdə, Qazax bölgəsinin – “İncə dərəsi” nahiyəsinin demək olar, aşıq

---

[2] Söyləyici: Çaylı kənd sakini Murad Novruzov (1928-2008)
[3]Allahmanlı M. Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən. Bakı: Nurlan, 2011, s.26

sənətinə bütövlüklə Borçalı aşıq ənənəsindən bəhrələnməsi barədə geniş izahlar verilmiş və lazımi tədqiqatlar aparılmışdır.

Vaqifdən, Vidadidən üzü bu yana XVIII yüzildə də Qazax mahalının şairlərinin şeirləri Borçalı ədəbi mühitinin bəzəyi olmuşdur. Ş.Məmmədli yazır ki, "XIX əsrdə və XX əsrin əvvəllərində qazaxlı şairlərdən Molla Hüseyn Sabit, Şıxlı Mustafa Ağa Arif, Dağkəsəmənli Mustafa ağa Nasir, Əbdürrəhman ağa Dilbazi Şair, İsgəndər Ağa Şair, Xanlıqlardan Hacı Rəhim ağa Vəhidi, Şahnigar Rəncuri, Kəsəmənli Çoban Əfqan, Qıraq Kəsəmənli Məhəmməd, Köçəsgərli Əli, Misgin Əli, Ağstafalı Mirzə Səməd, Məhəmmədəli, Şıxlı Səməd, Qaymaqlı Avdı, Daşsalahlı Tapdıq, Canallı Məmməd və başqaları Borçalı elində ağır məclislər keçirmiş və sevilmişlər"[4]. Gəlin bu bilgiyə bir az dəqiqlik gətirək. Əvvəla aşıqlardan aldığımız bilgiyə görə Qazax şairləri Borçalı elində məclis aparmayıblar, onların sözləri daim məclislərdə aşıqların sazında ifa edilib. Çoban Əfqanın özünü götürsək, savadsız el şairi olub ki, daim Ceyrançöldə ağasının sürülərini otarıb. Miskin Əli və Köçəsgərli Əli də həmçinin şair olublar, onların da Borçalı məclislərində özləri yox, sözləri səslənib. Mirzə Səməd ağstafalı yox, Qazağın Daşsalahlı kəndindən olub, söz qoşub, dastan yaradıb. Ümumilikdə, Canallı Məmməd, Aşıq Avdı Qaymaqlıdan başqa adları çəkilən sənətkarların heç birinin Borçalı aşıq məclislərinin aparılmasında rolları olmayıb. Qazax bölgəsində, deyilənə görə, adı çəkilən Məhəmmədəli, Daşsalahlı Tapdıq adlı sənətkar olmayıb. Aşıqlardan aldığımız bilgiyə görə, ustad Aşıq Canallı Məmməd, Dərya Məhəmməd, Aşıq Avdı, Aşıq Bəhram, Aşıq Cəlal Qəhrəmanov, Kərəm Nəsibov çağdaş dövrün ustadı Aşıq Ədalət Nəsibov, şagirdlərindən Məhəmmədəli Məşədiyev Borçalı bölgəsində ağır məclislər keçiriblər.

Bunlarla yanaşı, demək lazımdır ki, Aşıq Sadıq Sultanov, Hüseyn Saraclı, Xındı Məmməd, Əmrah Gülməmmədov, Kamandar Əfəndiyev, Məhəmməd Sadaxlı kimi Borçalının ustad aşıqları da daim Qazax bölgəsində ağır məclislər aparıblar.

Dissertasiyanın ikinci yarımfəsli "**Qazax aşıq və el şairlərinin yaradıcılığında klassik sənət ənənələri"** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. Tədqiqatın bu fəslində Qazax aşıq

[4] Məmmədli Ş. Azərbaycan ədəbiyyatının Borçalı qolu (1920-ci ilə qədər). Tbilisi: Kolori, 2003, s.134



və el şairlərinin yaradıcılıqlarında klassik poetik ənənələr araşdırılmış, klassik aşıq şeirinin yaşamasında, yeni nəsillərə ötürülməsində Qazax aşıqlarının da əvəzedilməz rolu olduğu xüsusi vurğulanmışdır. Qazax aşıq mühiti klassik ənənələrə söykənərək spesifik yaradıcılıq və ifaçılıq yolu ilə fərqlənən aşıqlar yetişdirmişdir ki, bunların yaradıcılığında təkcə Qazax aşıqlarının deyil, Göyçə, Borçalı, Gədəbəy-Şəmkir aşıqlarının klassik ənənələrə sadiqliyi ilə yanaşı, yeni çalarlarda da özünü qorumuşdur. Bu fəsildə Qazax mahalı coğrafi baxımdan Göyçə, Borçalı, Gədəbəyə yaxın yerləşdiyindən aşıq sənəti də bu üç bölgənin spesifik xüsusiyyətlərini özündə daşıdığı ortaya çıxmışdır.

Bu fəslin *"XX əsr Qazax aşıq yaradıcılığında klassik poetik ənənə"* adlanan birinci yarımfəslində göstərilir ki, mövzu baxımından rəngarəng olan Qazax aşıqlarının yaradıcılığında şeirlər demək olar ki, klassik ənənəyə daxil olan bütün mövzuları, şeir şəkillərini, deyimləri qoruyub saxlamışdır. Klassik aşıq mövzularının işlənmə dərəcəsini və ənənəsinin Qazax aşıq mühitində yaşadılmasını araşdırmadan öncə aşıq sənətinin XX əsrdə, xüsusən də sovetləşmədən sonra əsaslı dəyişikliyə uğradığını, klassik ənənəni "qoruya bilmədiyi" vurğulanmışdır. Bu yarımfəsildə əsas məqsəd Qazax aşıq mühitinin milli folklor mədəniyyətində yerinin müəyyənləşdirilməsindən, onun müasir nümayəndələrinin yaradıcılığının müqayisə və paralellər əsasında filoloji yöndən araşdırılmasından, sənətkarlıq və ifaçılıq məsələlərinin öyrənilməsindən, klassik ənənənin bu mühitin sənətkarlarının yaradıcılığında tutduğu yeri, mühitin özünəməxsus sənətkarlıq xüsusiyyətlərini araşdırmaqdan ibarət olmuşdur. Çünki bu aşıq mühitinin nümayəndələri yaradıcılıqlarında klassik ənənəni qorumaqla yanaşı, spesifik yaradıcılıqla aşıq sənətinin müxtəlif janr və şəkillərində yaradıb yaşatmışlar. Qazax aşıqları zincirləmə, dodaqdəyməz, qıfılbənd, cığalı təcnis, gedər gəlməz təcnis, güllü qafiyə, qoşma, gəraylı, divani, müxəmməs, cığalı müxəmməs ilə yanaşı eyni hərf üzərində qurulmuş şeir və ümumiyyətlə, aşıq sənətinin bütün növlərində şeirlər yazmışlar.

El sənətkarlarının zorla klassik sənətin məcrasından çıxmağa vadar edildiyi bir vaxtda klassik aşıq mövzularının yaşadılması, inkişaf etdirilməsi təqdirəlayiq hadisə idi. M.Allahmanlının da dediyi kimi, "aşıq bu dövrdə öz nəğməsini oxumalı olduğu halda,

başqasının, hətta tanımadığı bir kəsin mahnısını oxumağa məcbur edilirdi”.[5]

XX əsrin ortalarından başlayaraq Aşıq Avdı, Aşıq Məhəmməd, Aşıq Temraz, Aşıq Bəhrəm, Aşıq Cəlal kimi aşıqlar zəngin ədəbi irsləri və klassik ənənələrə sədaqətləri ilə Azərbaycan aşıq sənətinin çağdaş nümayəndələrinə örnək olurlar. Ə.Eldarovanın qeyd etdiyi kimi, “aşıqlar tarixin ən ağır keşməkeşli dövrlərində belə özlərinin zəngin ədəbi musiqi irsinin qorunması, daha geniş yayılması, nəsildən-nəslə keçməsi, ən yaxşı ənənələr əsasında inkişaf etdirilməsi qayğısına qalmışlar.”[6]

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli “*Qazax aşıq və el şairlərinin yaradıcılığında dini motivli şeirlər”* adlanır. Bu yarımfəsildə XX əsr Qazax aşıqlarının yaradıcılığında dini dünyagörüşün mövcudluğu o dövrün sosialist, kommunist ictimai quruluşu ilə qətiyyən uyğun gəlmədiyi göstərilir. Və nəticə etibarilə dinlə bağlı şeirlərin çox az yer tutduğunun səbəbi aydınlaşdırılır. Konkret nümunələr əsasında bu tendensiyanın səbəbinin aşıqların dini dünyagörüşü ilə sovetləşən və ateistləşən sosial-siyasi mühit arasındakı ziddiyyətlər olduğu aşkar olmuşdur. Digər tərəfdən, çox tez də sovet rejiminə uyğunlaşmağa çalışan Borçalı, Göyçə, Gəncəbasar və Şirvan aşıqları repressiyaya qurban getməmək üçün dini mövzulara müraciət etməməyə başladılar. Buna paralel olaraq yeni quruluşla bağlı yeni mövzular ortaya çıxdı.

Dini mövzuların, terminlərin, ideyaların, simvolların XX əsr Qazax aşıq ədəbiyyatında az-çox qorunması yenə də Aşıq Ələsgər, Növrəs İman və başqa aşıqların şeirlərinin təsiri ilə olmuşdur. Dini təhsil almış bəzi Qazax aşıqlarının rəsmi ideologiyanın aşıqları sovetləşdirməyə məcbur etdiyi bir dövrdə bu ideyaların tənəzzülə uğramasının qarşısının alınmasında xüsusi xidmətləri olduğunu da qeyd etmək lazımdır. Bunlardan Aşıq Məhəmməd, Aşıq Avdı, Şair Temraz, Aşıq Bəhrəm və başqalarını göstərmək olar. Lakin Qazax aşıqlarının demək olar ki, hamısı bu və ya digər dərəcədə dini termin və rəmzlərdən istifadə etmişlər. Bunu aşıqların və el şairlərinin yaradıcılığının təhlili bir daha əyani şəkildə təsdiq edir.

Aşıq ədəbiyyatında son dövrlərdə geniş araşdırılmağa çalışılan sufi rəmzləri, təsəvvüf mövzuları aşıq sənətinin yeni mərhələyə

[5] Allahmanlı M. Ozan, aşıq və aşiq. Bakı: Ağrıdağ, 1997, s.119
[6] Eldarova Ə. Azərbaycan aşıq sənəti. Bakı: Elm, 1996, s.33



qədəm qoyduğu ilə deyil, aşıq ədəbiyyatının öyrənilməsinin yeni mərhələyə keçməsi ilə əlaqədardır. Ancaq bir çox tədqiqatçılar faktlardan deyil, görmək istədiklərindən yazırlar. Burada aşıq-aşiq, təriqət-şəriət, hal elmi və s. haqqında yazmaqla aşıqları təriqət şairi kimi araşdırırlar. Aşiq-aşıq, dərviş-aşıq münasibətini prof. F.Bayat bir qədər fərqli şəkildə izah etmiş və aşıqların təsəvvüf əhli olmadığını isbatlamışdır: “Təbii ki, başlanğıcda aşığa çevrilən aşiqlər təriqət əhli idilər və sonradan müstəqil bir təşkilat kimi formalaşan aşıqlar təxəllüs olaraq “Qul”, “Miskin”, “Abdal”, “Xəstə”, “Şah”, “Sultan” və s. kimi terminləri qəbul etməklə özlərinin təsəvvüfü axına bağlılıqlarını qoruyub saxlamışlar. Aşıqlıq bir sənət növünə çevrildikcə təxəllüslər də arxa plana keçməyə, daha çox “aşıq” təyinedici adı ilə işlənməyə başladı. Sufizmin eşq anlayışı, vəhdəti-vücudun ontoloji və epistemoloji köklərini açıqlayan şeirlər bu ədəbiyyatda seyrəlməyə başladı. Aşıq ədəbiyyatının yaranmasından dövrümüzə qədər dəyişməz qalan əsas ünsürü ilhamın vergi ilə verildiyinə, aşıqlığın ilahi mənşəli olduğuna inam, bir də sufi rəmzləri oldu. O halda aşıq hər nə qədər mənşəi baxımından təsəvvüf ideologiyası ilə əlaqəli olsa da həm divan, həm də təkkə şairindən fərqlənir, çünki XVII yüzildən müstəqil bir təbəqə kimi formalaşan aşıqların şeirlərində daha çox bəşəri mövzular, bəşəri eşq, təbiət gözəllikləri, gözəlləmələr, daha sonra ictimai mövzular əsas yer tutmağa başladı”.[7] Burada təbii ki, M.F.Köprülünün və Ə.Cəfəroğlunun Anadolu və Azərbaycan aşıq sənəti ilə bağlı araşdırmalarında aşıq sənətinin təşəkkül və təkamül dinamikası ilə bağlı düşüncələrini də xatırlamaq lazımdır. Bu alimlərə görə, aşıqlar əski türk dini-mifik görüşləri ilə orta əsrlərin dini-təsəvvüfi görüşləri qovşağında ortaya çıxmış, aşıqlıq bu aspektdən öyrənilmişdir.[8]

El arasında Şair Temraz adı ilə tanınan və qoşmalarını, gəraylılarını, divanilərini daha çox Novruzlu tapşırması ilə yazan aşıq pirinin Hz. Əli olduğunu, onun əlindən badə alıb içdiyini bildirməklə

[7] Bayat F. Türk təkkə (təsəvvüf) ədəbiyyatı. Bakı: Elm və təhsil, 2011, s.341-342
[8] Köprülü M.F. Türk edebiyatında aşık tarzının menşe ve tekamülü // Milli tetebbular mecmuası, İstanbul, h. (1331), No. 1; Köprülü M.F. Azeri aşıklarından Tufarkanlı Abbas // Türk Amacı dergisi, İstanbul, yıl 1, s.1, Temmuz, 1942; Köprülü M.F. Türk saz şairleri. Ankara: 1992; Caferoğlu A. XVI asır azeri sazşairlerinden Tufarganlı Abbas // Azerbaycan yurt bilgisi dergisi, Mart, 1932, sayı 3; Caferoğlu A. Terekeme ağzile hudut boyu saz şairlerinden Kurbani ve şiirleri // TDED, III, İstanbul, 1948, No.112

dinlə əlaqəsinin olduğunu göstərmişdir. Azərbaycanda geniş yayılan əhli-haqlar kimi Novruzlu da Allaha aid edilən min bir adı Hz. Əliyə şamil edir. Dini məzmunu o qədər də dərin olmayan bu şeirdə fəlsəfi-poetik dərinlik, hiss və duyğuların axıcılığı diqqət çəkir. Şeirin ruhu, canı poetik-fəlsəfi intonasiyası fərqli anlam qazanır. Aşıqlarda pirin, vergi verənin, ustadın Hz. Əli olması bir ənənədir. Qazax aşıqları da yeri gəldikcə ustadlarının Hz. Əli olduğunu söyləyirlər. Aşıqların Hz. Əlidən badə aldığı, aşıqlıq sirrini ondan öyrəndiyi məlumdur. Aşıq Məhəmmədin "Əlidi, Əli" adlı qoşması bu cəhətdən daha maraqlıdır. Bu qoşmada dini-irfani rəmzlər bir-bir sadalanır, irfani dəyərlər təqdim edilir. Aşıq Məhəmməd (Dərya Məhəmməd) burada Allahla, peyğəmbərlə bərabər Hz. Əlini tərifləyir, onun şəhərlər fəth etdiyindən, tilsim qırdığından, vəliyullah olduğundan bəhs edir:

Yetmiş iki dildə dörd kitab əhli,
Dinlərin sərdarı Əlidir, Əli.
Dünya qərar tutub beş adın üstə
Göylərin ləngəri Əlidir, Əli.

Göründüyü kimi, haqq aşıqlığı aşıq sənətinin inkişafında xüsusi bir mərhələ təşkil etməklə, bu sənətin əsas məzmununu özündə əks etdirir. Şeirlərində təsvvüfi istilahları, qavramları özündə əks etdirən Dirili Qurbani, Xəstə Qasım, Aşıq Ələsgər, Molla Cüma, Növrəs İman, Aşıq Hüseyn Bozalqanlı və b. Azərbaycan aşıq ədəbiyyatının başlanğıcdan sufi yönlü olduğunu təsdiq edir. Bəşəri eşqdən ilahi eşqə qədər yüksələn aşıqlarda saz çalıb, söz qoşmağı onlara ərşi-kürsü yaradan Uca Allah vermişdir. Vergini onlara verənin Hz. Əli, qırxlar, Xızır, nurani qoca olması da bu ilhamın sufi mənşəli olduğunu göstərir. Haqq aşığının sadə şairdən üstünlüyü də onun Haqqın dili ilə söyləməsi, bədahətən şeirlər qoşması, qıfılbənd kimi soruşulan təsəvvüfi sirləri ilahi bir qüdrətlə açmasındadır. Aşıqlar aşiqlikdən aşıqlığa gedən yol, ilahi vergi, dərvişlik, ərənlik məqamları haqqında qoşduqları eşq dastanlarında uzun-uzadı məlumat verirlər. Qazax aşıqlarından bəziləri butadan, vergidən, pirdən də danışmaqla dinə yad olmadıqlarını göstərmişlər. Bu aşıqlar dünyaya aldanmamağı, zərə, qiymətli daş-qaşa məhəl qoymamağı tövsiyə edirlər, nəfsə qalib gəlməyi bu şəkildə – nəsihətlə dinləyicilərinə çatdırırlar. Aşıq Bəhrəmin şeirlərində buna daha çox rast gəlmək mümkündür:

Qəm yemə divana könlüm
Bir gün olar sizə yaz gələr-gələr.



Yaxşı otur, yaxşı dolan, yaxşı dur
Bu fani dünyadı söz gələr-gələr.[9]

Haqq aşıqlığının yuxuda verilməsi, yuxunun sufizmdə önəmli yer tutması da diqqətdən kənarda qalmamalıdır. Haqq aşıqlığının yuxuda verilməsi C.Bəydilinin araşdırmasında daha fərqli və dəqiqliyi ilə izah olunmuşdur. [10]

Dissertasiyanın ikinci fəslinin üçüncü yarımfəsli "*Qazax aşıq və el şairlərinin yaradıcılığının mövzu dairəsi"* adlanır. Qazax aşıq və el şairlərinin əsərlərinin mövzu dairəsi olduqca zəngindir. XX əsr Qazax aşıqlarının yaradıcılığının kamilləşdiyi bir dövrdür. Əsrlər boyu Qazax bölgəsi sazın-sözün, şeiriyyətin sənətkarlıq qüdrətini özündə qoruyub saxlaya bilmişdir. Vaqifdən, Vidadidən sonra Səməd Vurğun poeziyasının təsiri ilə aşıq yaradıcılığında və el şairlərinin yaradıcılığında sənətkarlıq cəhətləri inkişaf etmişdir. Birinci onu qeyd etmək vacibdir ki, bu bölgənin qələm sahibləri ustadnamələrə daha çox üstünlük verib, çünki öyüd-nəsihət, ibrətamiz fikirlər mənəvi dəyərləri səciyyələndirən amil kimi məclislərdə ilkin olaraq səslənirdi. Ustadnamələr Yunis Əmrə, Aşıq Veysəl, Aşıq Alı, Abbas Tufarqanlı, Aşıq Ələsgər yaradıcılığında daha aktualdır. Mirzə Səmədin, Aşıq Məmmədyarın, Canallı Məmmədin, Şair Hacı Qaracayevin, Qocayev Məhəmmədin, Aşıq Avdının, Şair Temrazın, Şair Qulunun, Aşıq Cəlal Qəhrəmanovun, Aşıq Kərəm Nəsibovun, Aşıq Şəmistan Dərgahquliyevin, Aşıq Zəkəriyyə Mehmanın, Aşıq Ədalət Nəsibovun və s. yaradıcılığında ustadnamələrə xüsusi yer ayrılıb.

El şairi Çoban Qulu belə deyir:

Qədəm qoyub bir məclisə varanda
Əyləş öz yerində dur deməsinlər.
Dindirsələr kəlmə-kəlmə cavab ver,
Yağ olan sözünə şor deməsinlər[11].

Şair Qulunun ustadnaməsi Ululu Kərimin ustadnaməsi ilə mahiyyət etibarilə eynidir:

Salam verib bir məclisə varanda
Yaxşı əyləş, yaxşı otur, yaxşı dur

---

[9] XX əsr Qazax aşıqları və el şairləri / toplayanı və tərtib edəni Qəsəbova İ. Bakı: Nurlan, 2009, s.357
[10] Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, s.142
[11] Məşədiyev Q. Karvanlar qocalır, yollar qocalmır. Bakı: Nurlan, 2007, s.46

Dindirəndə kəlmə-kəlmə cavab ver,
Görən desin: bərəkallah yaxşıdır[12].

Hər iki müəllifin şeirində məclis əhlinə, eləcə də cəmiyyətdəki insanlara bir ustad nəsihəti verilir. Qazax aşıqlarının nəsihətamiz, hikmətli şeirlərinin sevilib məclislərdə yayılmasının başlıca səbəblərindən biri də, bu bölgədə el şairlərinin və aşıqların el ağsaqqalı, müdrik insan kimi dəyərləndirilməsi, onların məsləhətlərinə əməl edilməsi olmuşdur. Qazax mahalında elçi gedəndə, iki gəncin və ya ailənin arasına nifaq düşüb küsüşəndə aşıq və ya el şairlərini aparırmışlar ki, işlər düzəlsin. Çünki, onlar o qədər nüfuza malik idilər ki, xalq onların sözündən çıxmazdı.

Qocayev Məhəmmədin yaradıcılığında Allaha inam, hər şeyin yaradana məxsusluğu, "bu dünyadan neçə-neçə canların gəlib keçdiyini" xatırladan, insanlığın daim qalar olduğunu ifadə edən misralar səciyyəvidir.

Yerin alar qisas qiyama qalmaz,
Bir gün cana bir nişanə düşəcək.
Yaman günü hər kim kimə göstərib,
Həmən gündən bir gün danə düşəcək[13].

Qazax şairlərinin məhəbbəti tərənnüm edən şeirləri də özəlliklə seçilir. Qazax aşıqlarının tərənnüm etdikləri gözəllər asta yerişli, kəklik gülüşlü, ceyran baxışlı, gül camallı, şirin dilli, ismətli, həyalı Azərbaycan qızlarıdır. Onların ifadələrində əsl sevgi, ismətli gözəllərin vəsfinə həsr edilmiş şeirlərdə isə səmimilik duyulur. Aşıq Sadıq Avdıoğlunun yaradıcılığında sevgi şeirləri daha qabarıqdır. Onun sevgilisinə həsr etdiyi şeir bütövlükdə sevgi yolunda nələr baş verə bilərsə o hisslər istisna deyildir. Şeirlərinin birində Aşıq deyir:

Sevirəm yaz başı güllər içində,
Bir lalə-nərgizi, bir bənövşəni.
Oxuyar aşıqlar bir qızılgülü,
Bir lalə-nərgizi, bir bənövşəni[14].

Qazaxda ana vətən, torpaq, ata yurdu müqəddəs tutulur. Bu qazaxlıların yurd qeyrəti hisslərinin daim olması ilə bağlı psixoloji keyfiyyətdən irəli gəlir. Aşıqların eləcə də el şairlərinin aparıcı

[12] Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, s.182
[13] XX əsr Qazax aşıqları və el şairləri / toplayanı və tərtib edəni Qəsəbova İ Bakı: Nurlan, 2009, s.132
[14] Yenə orada, s.581



mövzularından ən başlıcası vətən, yurd sevgisidir. Ş.Məmmədli Borçalı aşıqlarının vətən mövzusunu iki yöndə büruzə verdiyini yazır:

1)ümumiyyətlə, vətən mövzusu
2) bilavasitə Borçalı mövzusu

Ümumiyyətlə, vətən mövzusu və bilavasitə yaşadığı bölgəyə olan sevgi təkcə Borçalıda deyil, Göyçədə, Gədəbəydə, Şirvanda və eləcə də digər bölgələrdə geniş şəkildə əhatə olunmuşdur. Qazax aşıqlarının yaradıcılığında geniş yayılmış mövzularından biri də təbiət gözəli "ceyran"dır. Ceyrana bir çox şairlər söz qoşub tərif yazmışlar. Qazax bölgəsində Vurğunun ölümündən sonra Vurğun əmanəti kimi baxılan ceyran məclislərdə tez-tez söylənilirdi.

Aşıq Ayaz Zülfüqarov ceyrana Vurğun əmanəti olaraq belə deyir:

Ovçusan gəzirsən dağlar başında,
Amandır endirmə düzə ceyranı.
Vurğunun izi var torpaq daşında,
O, tapşırıb getdi bizə ceyranı.[15]

Aşıq Cəlal Qəhrəmanov ceyranın gözəlliyinin qarşısında bəxtinin qara olmasını bu cür dəyərləndirir:

Deyirlər "Ahutək", düzdür bu misal,
Ondadır gözəllik, ondadır camal.
Hayıf ki, yaradan ay Aşıq Cəlal,
Yaradıbdır baxtı qara ceyranı.[16]

Qazax aşıqlarının ən çox müraciət etdikləri mövzulardan biri də sazla bağlı şeirlərdır. O baxımdan hər hansı bir aşığın yaradıcılığına baxılırsa baxılsın, onun yaradıcılığında saza həsr olunmuş şeirə rast gəlməmək mümkün deyil. İslam dininin qəbulundan əvvəl türklərin qopuza müqəddəslik verməleri, orta əsrlərdə sazın üzərinə keçirildi. Ona görə də Azərbaycanın bütün bölgələrində aşıqlar sazı müqəddəsləşdirmişlər. Qazax bölgəsinin aşıqları saza daha həssas yanaşırlar. Onlar sazla danışır, dərdləşir, nakam sevgilərini, sirlərini paylaşırlar. Necə ki, Aşıq Avdı deyir:

Sən ki, eşqin yoldaşısan,
Gümüş telli, sədəfli saz.

[15] XX əsr Qazax aşıqları və el şairləri / toplayanı və tərtib edəni Qəsəbova İ. Bakı: Nurlan, 2009, s.510
[16] Aşıq Cəlal Q. Sədəfli saz məni dindir. Bakı: Sabah, 1992, s.32

Məhəbbətin sirdaşısan,
Gümüş telli, sədəfli saz.[17]

M.Allahmanlı yazır ki, "XIX əsr və XX əsrin əvvəllərində Qazaxda ən geniş yayılan musiqi aləti saz olmuşdur. Bu məhz həmin dövrdə aşıq ədəbiyyatının, aşıq sənətinin geniş təşəkkül tapması və xalqın sənətə marağının nəticəsi idi. O səbəbdəndir ki, hər bir evdə demək olar ki, divardan tüfəng, xəncərlə yanaşı, saz da asılmışdır".[18] Beləliklə, Qazax aşıqlarının şeirlərindən göründüyü kimi, saz obrazlaşdırılaraq simvola çevrilməklə yanaşı, daha çox canlı varlıq kimi aşıq poeziyasının mövzusuna çevrilmişdir. O, aşığın sirdaşı, yoldaşı, varı, dövləti və nəhayət, qədəri, taleyidir. Təbii ki, Qazax aşıqlarının, eləcə də el şairlərinin ədəbi-bədii irsi, sənətin ideya-estetik məzmunu və əxlaqi-etik mündəricəsi ilə birləşərək məlum mövzularla bərabər yeni orijinal mövzular da yaratmışdır.

Dissertasiyanın ikinci fəslinin dördüncü yarımfəsli "*Ustad-şagird münasibəti"* adlanır. Bu yarımfəsildə aşıqlığın ortaya çıxdığı tarixdən bu günə qədər ustad-şagird münasibəti baxımından çox şey dəyişsə də, dəyişməz qalan aşıqlıq sənətinin musiqi, avaz və şeir üçlüyündə bir başqasına öyrədilməsi qeyd olunmuşdur. Ustad-şagird münasibətini ilk araşdıran F.Köprülüdən üzü bəri ustad aşıqların ərkana görə on iki aşıq yetişdirməsi, onların ustad aşığın yolunu davam etdirməsi məsələləri üzərində durulmuşdur. Təbii ki, az-çox bu mövzuya toxunan tədqiqatçılar F.Köprülüdən daha artıq fikir söyləyə bilmədiklərindən ustad-şəyird münasibəti hələ də öyrənilməli mövzulardan biridir.[19] Burada on iki rəqəmi reallıqdan daha çox məcazi məna ifadə edir. Necə ki, Aşıq Ələsgər deyir:

Adım Ələsgərdi, mərdü mərdana,
On iki şəyirdim işlər hər yana [20]

Artıq qeyd olunduğu kimi, aşıq sənətinin ən ümdə xüsusiyyətlərindən biri də ustad aşıqların şagird hazırlamasıdır. Sənəti davam etdirmək üçün ustad aşıq-şagird münasibəti aşıqlıq sənətinin ən mühüm məsələsi kimi vacib problemlərdən biridir. Bəri başdan demək lazımdır ki, ustad-şagird münasibəti qədim zamanlarda daha

[17]Aşıq Avdı Qaymaqlı. İncəgülü. Bakı: Nurlan, 2009, s.48
[18]Allahmanlı M. Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən. Bakı: Nurlan, 2011 s.74
[19] Köprülü F. Türk ədəbiyyatında aşıq tarzının menşe ve tekamülü // Türk saz şairləri. Ankara: 1992
[20] Aşıq Ələsgər. Bakı: Yazıçı 1988, 66



sistemli və ənənəvi olmuşdursa, bu ənənə zaman keçdikcə dəyişmiş, əvvəlki şəklindən bir xeyli uzaqlaşmışdır. F.ü.e.d. M.İmanov ustad-şagird münasibətini bir "ənənə" olaraq dəyərləndirərək Aşıq Şəmşirin ustad-şagird ənənəsinin davam etdirməsini belə ifadə edir: "Doğrudan da, şagird illər uzunu ustaddan dərs alıb Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Valeh... kimi sənətkarların adı ilə bağlı saz və söz ənənəsini mənimsəmiş olur. Sonralar bir ustad kimi Aşıq Şəmşirin də otuzdan artıq şagirdə aşıladığı həmin ənənədə bir çox tələblərlə yanaşı, bir səciyyəvi cəhət də var: şeirlərin dinləyiciyə yurd yeri ilə birlikdə çatdırılması"[21]. Ustad-şagird münasibəti aşıqlarda deyil, hətta sazbəndlikdə, qalayçılıqda, dəmirçilikdə, papaqçılıqda, çəkməçilikdə, dulusçuluqda və s. kimi bir çox peşə sahələrində də olmuşdur. Buna bir növ sənətin varisliyi də demək olar. Ancaq aşıqlıq sənətinin təməl qanunlarından biri olan ustad-şagird münasibəti digər sənət növlərinin bu tip varislik ötürməsindən fərqlənir. XX yüzilin əvvəllərində hələ də ustad-şagird ənənəsi qorunmaqda, ustad aşığa xidmət göstərmək mərifət sayılmaqda idi. Göyçə aşıq mühitinin görkəmli saz ustası Aşıq Növrəs İman ustadlığın önəmi haqda yazırdı:

Mərifət lazımdır əzəl binadan,
Öyüt nəsihət gərək ata-babadan.
Yüz il cəhd etsən də qalarsan nadan,
Xidmətin olmasa kamil ustada[22].

Ustad aşıq Qul Allahqulu da aşıqlıq sənətinin öyrənilməsi üçün ustadın olmasının vacibliyini xüsusi vurğulayırdı:

Könül, qulluq eylə kamil ustada,
Ustad görməyənin işi xam qaldı.
Neçə danəndələr köçdü dünyadan,
Yerində bir neçə ağlı kəm qaldı.

Deyilənə görə, ustad aşıqlar hər adamı özlərinə şagird götürməzlərmiş. Onlar o şagirdlə demək olar ki, ömürlərinin xeyli hissəsini birgə yaşayırlar. Onlarla yol yoldaşı, məclis ortağı olurlar. Bəzən "ustada qulluq" sözünü təkcə sənət qulluğu kimi izah edirik. Ancaq el arasında deyilənlərə və ustadların söylədiklərinə əsasən deyə bilərik ki, şagirdlər günlərlə ustadın evində qalar, ona hər işində

[21] İmanov M. Ustad aşıq və tarixi ənənə (II yazı) / 525-ci qəzet, 23.12.2013
[22] Növrəs İman. Bakı: Səda, 2004, s.37

kömək edərmişlər. Qapıda-bacada, evdə-eşikdə nə iş varsa görərmişlər. Ona görə də qulluq etmək sözü həm konkret, həm də məcazi mənada işlədilmişdir. Şagird ustadına o qədər bağlı olur, onun dediklərinə o qədər inanır ki, yalnız öz ustadını təbliğ edir.

Burada ustad-şagird münasibəti üçün mühüm olan bir cəhətə də nəzər salmaq lazımdır. Ustadlar şagird olmaq istəyən uşaqları müxtəlif üsullarla sınağa çəkərmişlər. Onun aşıqlıq sənətinə ötəri həvəsi olub-olmadığını yoxlayarlarmış.

Ustadsız aşıqlar məclislərdə çox da hörmətlə qarşılanmazlarmış, belə ki, hər aşıq öz ustadı ilə bilinərmiş. Keçmişdə şagird ustadın evində aylarla qalarmış. Öyrətdiyinin əvəzində ustad aşıq, şagirdindən təmənna gözləməzmiş. Ancaq bunun müqabilində ustada kimisi inək, kimisi xalça verərmiş. Ustad yanına gedən şagird bütün aşıq yaradıcılığını tam öyrənib qurtarandan sonra ustadından xeyirdua alır, ustadı ilə halallaşarmış. Bəzən deyirlər ki, halallıq almamış məclisə getməzmişlər. Keçmişdən üzü bu yana xalq aşıqların məclisdə özlərini neçə aparmaları, ədəb-ərkanları, aşıq yaradıcılığını mükəmməl bilmələri, hazırcavablığı əsasında ustadına afərin söyləyir. Prof. M.Həkimov yazır ki, "Burada şagird ana südünün halallığı ilə ustad bərəkallahı eyni məxrəcdə birləşir". Əslində "ustad bərəkallahı" deyil, şagird ustad halallığı ana südü qədər halal olmalıdır, – desək daha məntiqə müvafiq olar[23]. Şagird ustada 5, 10 il qulluq etməli imiş, hətta ustadların dediyinə görə, şagird məclislər aparsa belə, ömrünün sonuna qədər ustadın yanına gedib-gələrmiş.

Buraya qədər deyilənlərdən ustad-şagird münasibətinin üç cəhəti olduğunu görmək mümkündür. Həm ustad aşıqların yaxşı şagird sorağında olmaları, həm gənc aşığın məclis aparmağa tam hazır olmayanda ustadın yenidən onu hazırlaması, həm də ustad sözünün, məsləhətinin dəyərli tutulması. Bir sözlə, aşıq mühitlərin formalaşmasında əsaslı rol oynayan ustad aşıqlar sənətin həmişəyaşarlığını təmin etmək üçün şagird yetişdirməyi də unutmamışlar. Qazax aşıq mühitindən çıxan ustad aşıqlar da bu ənənəni davam etdirərək aşıqlıq sənətinə yeni ruh, yeni estetik kriterilər gətirmişlər.

Üçüncü fəsil "**Qazax aşıq və el şairlərinin bədii sənətkarlıq özəllikləri"** adlanır və dörd yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "*Qazax aşıqları və el şairlərinin yaradıcılığında janr özünəməxsusluğu"* adlanır. Bu bölmədə Qazax aşıq və el şairlərinin fərdi yaradıcılıqlarına daha çox yer verilir. Belə ki, aşıq və şairlərin aşıq şeir şəkillərindən istifadə qaydaları, az işlənən şeir növlərindən istifadə olunduğu tədqiqat zamanı aşkarlanmışdır. Məlumdur ki, xalq şeirinin ən geniş və ən qədim şeir şəkillərindən biri də qoşmadır. Qazax aşıq-şairləri də bu növdən məharətlə istifadə etmişlər. Miskin Əli, Şeyda Əziz, Mirzə Səməd, Aşıq Məmmədyar Eminov kimi şair-aşıqların qoşmaları bu gün də məclislərdə aşıqlar tərəfindən ifa olunmaqdadır. Miskin Əli Qazax rayonunda uzaq dağ kəndində 1881-ci ildə anadan olmuşdur. Onun bir çox gözəlləmə və gəraylıları olmuş, lakin dövrümüzədək çox az şeiri gəlib çatmışdır. O, ən çox qoşma janrının gözəlləmə növündə yazmışdır. Bir gözəlləməsində deyirdi:

Gözəl, sənin həsrətini çəkirəm,
Üzünə tökülən teli görmüşəm.
Bir busə lütf edib, eyləsən kərəm,
Zənəxdanda qoşa xalı görmüşəm.[24]

Aşıq şeir şəkillərinin bir çox növlərindən məharətlə istifadə edən aşıq ruhlu şairlərdən biri də şair Qulu Məşədiyevdir. Yaradıcılığında özünəməxsus üsluba malik olan şairin yaradıcılığında bir hərf üzərində yazılan şeir növünə də rast gəlmək mümkündür. "D" hərfi üzərində yazılmış şeir əslində qoşmanın bir növüdür. Çünki, şeir 11 hecalıdır:

Dolaşdım dağları dəli divanə,
Danışdım dərdimi dağa, dözmədi.
Dağdakı dağlara dayanan döşüm,
Dünənki düyünə dağa dözmədi.[25]

Bu şeir növündən təkcə şair Qulu deyil, bir çox şairlər, o cümlədən, Allahverdi Hacalıyev (Şair Həvəskar) də istifadə etmişdir. Onun da yaradıcılığında "B" hərfi üzərində yazılmış şeirə rast gəldik:

Bismillahla bərkimişəm, bişmişəm,
Belə bəd başlama, bədə bədəm, bəd.
Bəşər bəndəsiyəm başdan binadan,
Barışmaram, bedasıla bədəm bəd.[26]

---

[23] Həkimov M. Aşıq sənətinin poetikası. Bakı: Səda, 2004, 606 s.

[24] Aşıqlar / toplayanı H.Əlizadə. I c. Bakı: Azərnəşr, 1935, s.287

[25] Şair Qulu. Karvanlar qocalır, yollar qocalmır. Bakı: Nurlan, 2007, s, 58

[26] XX əsr Qazax aşıqları və el şairləri / toplayanı və tərtib edəni Qəsəbova İ. Bakı: Nurlan, 2009, s.432

Aşıq Məhəmməd Qocayev isə bir hərf üzərində dodaqdəyməz yazmışdır. Lakin onun şeirində bir az uyğunsuzluqlar vardır. Belə ki, şeirin təkcə birinci bəndi "s" hərfi üzərində qurulmuşdur. Digər iki bənddə isə ən çox "s" hərfi işlənsə də başqa hərflərdən də istifadə olunmuşdur. Məsələn:

Sənin sərin sərsərlərdən sərindi,
Sərdən sini, sini sərdən sən gətir.
Sinin sehri səhralara sehr edər,
Sal sərini səhərdən sən gətir.[27]

Qazax aşıq-şairlərinin yaradıcılığında təcnis janrına da çox üstünlük verilir. Demək olar ki, aşıq-şairlərin hər birinin yaradıcılığında təcnisin bütün növlərindən istifadə edilib. Təcnis ümumilikdə aşıq yaradıcılığında ən geniş müraciət olunan şeir növüdür. Təcnisin "Bayatı təcnis", "Gəraylı təcnis ", "Xətəngi təcnis", "Ayaqlı təcnis", "Cığalı təcnis", "Nəfəsçəkmə təcnis", "Dodaqdəyməz təcnis", "Zəncirləmə təcnis", "Öyüdnamə cığalı təcnis", "Əvvəl–axır hərf üstə təcnis" kimi növləri olsa da, Qazax aşıq-şairlərinin yaradıcılığında "Bayatı təcnis " və "Xətəngi təcnis " növündən başqa hamısından geniş istifadə etdiklərini müşahidə etdik. Əslində təcnis janrı da şairdən böyük məharət, ustalıq, dilə bələdlik tələb edir. E.Məmmədli cığalı təcnisə belə tərif verir: "Məzmunca müxtəlif, formaca eyni və yaxın sözlər qafiyə quruluşunu yaratdıqda həmin şeir təcnis adlanır"[28]

Şair Temrazın yaradıcılığı daha geniş və rəngarəngdir. Onun şeirləri arasında cığalı müxəmməsi daha diqqətəlayiqdir:

Salmısan eşqin gölünə,
Gəl atma ümmana, gəlin.
Leylisən insaf eylə,
Mən yazıx Məcnuna, gəlin,
Yanıram atəşinə,
Olmuşam pərvanə, gəlin.
O mah camalın,
Üzündə xalın,
Ay qadan alım,
Nədir xəyalın.[29]

---

[27] Yenə orada, s.136
[28] Məmmədli E. Təcnis sənətkarlığı. Bakı: Naftapres, 1998, 150 s.
[29] XX əsr Qazax aşıqları və el şairləri / toplayanı və tərtib edəni Qəsəbova İ. Bakı: Nurlan, 2009, s.302-303



Təcnisin "nəfəsçəkmə təcnis-müsəddəs" forması da vardır ki, aşıq poeziyasında nadir hallarda rast gəlinir. M.Həkimov yazır ki, "nəfəsçəkmə təcnis müsəddəsi şeirə görə təhlil etmək bir növ naqislik əlaməti sayılır. Burada şeiri saz havası ilə oxumaq əsas şərtdir. Belə ki, birinci bəndin 2-ci, 4-cü və 6-cı misralarından sonra ifaçı aşıq nəfəsini çəkir. Sonra nəfəsini dərib yenidən hava axınını ağız boşluğundan sərbəst buraxır və növbəti misraları saz havasının müşayiəti ilə oxuyur".[30] Aşıq Cəlal Qəhrəmanov, Şair Qulu Məşədiyev, Aşıq Sadıq Avdıoğlu təcnisin bu növündə şeir yazmışlar. Lakin onlar nəfəsçəkmə təcnis deyil, gedər gəlməz təcnis deyiblər. Aşıq Cəlalın və Aşıq Sadıqın şeirləri eyni "off" kəlməsi ilə deyilsə də mahiyyətcə tamamilə fərqlidir. Aşıq Cəlal yazır:

Yağış təzə olar buludlar qarı,
Yazda gün əridər dağlarda qarı.
Közü yığıb ocaq qalayan qarı
Əlin yandırsa eyləməzmi of...
Soyuqdan üşüyüb titrəyən canı
Oda qızınanda ay eylər...[31]

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli "*Qazax aşıqlarının yaradıcılığında dil-üslub xüsusiyyətləri"* adlanır. Aşıq poeziyası ana dilinin tarixi inkişaf mərhələlərinin öyrənilməsi üçün ən mötəbər mənbələrdən biridir. Özünü xalqın bədii təfəkkürünün ifadəçisi kimi təsdiq edən aşıq, həm də şifahi xalq sənətinin çoxəsrlik inkişaf yolunda cilalanaraq yüksək kamillik səviyyəsinə çatmış, dil sərvətinin qoruyucusu və daşıyıcısı olmuşdur. Qazax bölgəsinin aşıq-şairlərinin ədəbi irsinə nəzər yetirib, tədqiq edəndə onların zəngin türk xalq ədəbiyyatına və dilinə möhkəm bağlılığının şahidi oluruq. Bu bölgənin sənətkarlarının əsərlərindəki forma, məzmun və dil zənginliyi, axıcılıq, yığcamlıq, fikir gözəlliyi, bədii ifadə vasitələrinin rəngarəngliyi xüsusilə fərqlənir. Odur ki, bu bölgənin sənətkarlarının nümunələri uzun müddət digər bölgələrdə də dillər əzbəri olmuş, yaddaşlara iz sala-sala, zəmanəmizə qədər gəlib çatmışdır. Prof. V.Vəliyev yazır ki, "1917-ci ildən başlayaraq Azərbaycanın Gəncə, Ağdam, Qazax, Şəmkir, Şamaxı, Naxçıvan və başqa qəzalarında ölkədə davam edən çarpışmanın xarakterini anlamağa nisbətən şərait

---

[30] M.Həkimov. Azərbaycan aşıq şeri şəkilləri və qaynaqları. Bakı: Maarif, 1999, s.344
[31] Aşıq Cəlal. Sədəfli saz məni dindir. Bakı: Sabah, 1992, s.87

var idi. Həmin illərdə Qazax qəzası kəndliləri arasında oxunan xalq mahnılarının məzmununa diqqət yetirək:

Allah-allah amandı,
Xanlar, bəylər yamandı.
Bərk durun, a yoldaşlar,
Bu bir yaxşı zamandı.

Qazax qəzasında məşhur el şairi Mirzə Səmədə aid edilən bu mənzumənin əslində kim tərəfindən qoşulduğu məlum deyil". [32]

Klassik aşıq ədəbiyyatının əsasları üzərində ərsəyə çatan, saz-söz sənəti ənənələrini layiqincə davam və inkişaf etdirən Qazax aşıq-şairlərinin ədəbi irsi bu bölgədə aşıq şeirinin zəngin bir qolunun mövcudluğundan xəbər verir. Araşdırılması son dərəcə vacib olan bu irs, ümumiyyətlə, Azərbaycan xalq ədəbiyyatının indiyə qədər qismən araşdırılmış bir sahəsini əhatə edir. Müxtəlif illərdə yaşamış aşıq-şairlər zəngin çalarla aşıq şeirinin aşağıdakı şəkillərində dəyərli bədii nümunələr yarada bilmişlər: bayatı, gəraylı, qoşma, təcnis, cığalı təcnis, gedər-gəlməz təcnis, dodaqdəyməz, divani, dodaqdəyməz divani, müxəmməs, cığalı müxəmməs, deyişmə, güllü qafiyə, zəncirləmə, eyni hərflə yazılan və s. Aşıq şairlərin dastan yaradıcılığını və aşıq rəvayətlərini, aşıq qaravəllilərini də bu siyahıya əlavə etsək çalarlıq daha qabarıq görünər. Qazax bölgəsi gözəl adət-ənənələri özündə qoruyub saxlamaqla ən vacib olan dil saflığının təbiiliyi ilə seçilir. Qazax şair və yaradıcı aşıqlarının müəyyən anlamda özünəməxsusluğu özünü daha çox onunla ifadə edir ki, onlar canlı xalq dilinə, danışıq dilinə, xalq şeiri dili və üslubuna üstünlük vermişlər. Bədii fenomenliyin mühüm şərtlərindən biri də əsərlərin kamil dildə olmasıdır. Qazax aşıqları sadə xalq dilində yazıb yaratsalar da ərəb-fars mənşəli sözlərdən də istifadə etmişlər. Onların yaradıcılığında gövhər-kan, şəhri-əntəri, imsirəti, kimi ifadələrə də rast gəlmək mümkündür. Çoban Əfqan, Mirzə Səməd, Aşıq Avdı Qaymaxlı, Aşıq Məhəmməd Qocayev (Dərya Məhəmməd), Şair Hacı Qaracayev və.s aşıqlar ərəb əlifbasında yazmışlar. Məsələn Aşıq Avdı Qaymaxlının şeirlərində daha fərqli xüsusiyyətlər vardır. R.Kamal yazır ki: "Avdı sözünün ritm-intonasiyası, vəzni ilk növbədə ləhcəyə-şivəyə tabedir. Aşığın şirin ləhcəsi heca düzümünü, məna məntiqini nizamlayır. Ozan şeiri nitq hadisəsi, alliterasiya

[32] Vəliyev V. Qaynar söz çeşməsi. Bakı: Yazıçı, 1981. s.71



hadisəsidir ("Yoruldum yolunda qaldım piyada", "Qoyma Avdı yaralansın yadınan", "Əyilib yığvalım yaman yan gəlib" və s.)"[33]

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli "***Qazax aşıqlarının məxsusi saz havacatları"*** adlanır. Dissertasiyanın bu yarımfəslində əsasən Qazax mahalının Sovet dönəmində yaşam tərzi, sənətkarlıq və yaradıcılıq üslubu diqqət mərkəzində olmuşdur. Tədqiqat zamanı daha çox Qazax aşıqlarının yaradıcılığında XX yüzilin 30-40-cı illərində ifaçılıqda xor aşıq lirikası üstünlük təşkil etdiyi nəzərə alınmışdır. Həmin tarixlərdə sovet rejimi Qazax mahalının aşıqlarına da öz təsirini göstərmişdir. Belə ki, aşıqlar tədbirlərdə, el şənliklərində, üzüm tarlalarında, mövsüm mərasimlərində iştirak edirdilər. Xorla icra edilən havacatlar da elə bu səbəbdən yaranmışdır. Belə tədbirdə adətən 30-40 aşıq birgə xorla oxuyarmışlar. 50-ci illərdən sonra xor lirikası demək olar ki, daha peşəkar şəkil almışdır. Qazax aşıqlarının xor lirikasında yüksək peşəkarlıq göstərmələrində ustad Aşıq Ədalət Nəsibovun və ustad Aşıq Şəadət Gülməmmədovun əvəzsiz xidmətləri olmuşdur. Tədqiqat zamanı ustad aşıqlara müraciət olunub bəzi məlumatlarda onların söylədikləri fikirlərə əsaslanılmışdır. Ustadlardan aldığımız məlumatlara əsaslanıb deyə bilərik ki, "Şahsevəni", "Paşa köçdü", "Vaqif gözəlləməsi", "Qəmərcanı", "Gödək donu" və s. kimi havacatlardan xorda daha yaxşı istifadə edilir. Aşıqların ifa etdikləri "Gilanar" adı ilə tanınan havacatın əsl adının "Qazax səbzəsi" olduğu da tədqiqat zamanı təsdiqini tapmışdır. Bundan əlavə, onu da deyək ki, Qazax mahalının özünəməxsus saz havacatları zaman-zaman yaranmışdır. "Vaqif gözəlləməsi" aşıqların dilində məclislərdə ifa edilir. Bu havacatların mahir ifaçılarından aşıq Aslan Aslanov, Aşıq Hüseyn Xaloğlu, Aşıq Mahmud, Aşıq Kərəm, Aşıq Cəlal, Aşıq Şəadət Gülməmmədov, Aşıq Ədalət Nəsibov olmuşlar. Ümumiyyətlə, havacatların düzgün ifa tərzində bu ustadların əməyini yüksək qiymətləndirmək lazımdır. Hər bir havacatın yaranma səbəbi və tarixi olduğu kimi, Aşıq Avdının şəyirdlərinin dediyinə görə, "İncə gülü" havası da 1948-ci ildə belə yaranıb: Aşıq Avdının evinin arxa tərəfi kolxoz bağı olub. Ustad həmişə bu bağa çəkilər, təbiət qoynunda fikrə dalar, təbiətdən ilham alarmış. Deyilənə görə, cavanlığında sevgilisi Mehribanla da burda görüşərmiş. Bir gün yaxın dostu

[33] Aşıq Avdı Qaymaqlı. İncəgülü. Bakı: Nurlan, 2009, s.8

Kəmərli İdris oğlu Məmməd Aşıq Avdığilə qonaq gəlir, görür ki, aşıq evdə yoxdur. Aşığın həyat yoldaşı Yasəmən xanım görür ki, yenə adəti üzrə aşıq kolxoz bağına çəkilib nəsə yazır. Elə bu vaxt aşıq Cəlal və aşıq Yəhya da ustadın yanına şəyirdliyə gəliblər. Bir az keçməmiş görürlər ki, aşıq qım-qıma deyə-deyə evə sarı gəlir. Soruşurlar ki, usta nə oxuyursan? Cavab verir ki, təzə hava yaratmışam bu da sözləridir. Elə oradaca havanı şəyirdlərinə öyrədir. O gün bu gün "İncə gülü" havası aşıqların dilində məclislərdə ifa olunur. Aşıq Avdının "İncə gülü" havası oynaq şən havadır. Sözlərindən bir bəndi isə belədir:

Bir gün durdum çıxdım gülşən seyrinə,
Gördüm ki, bülbüllər gülə yalvarır.
Bənövşə boynunu büküb nərgizə,
Nərgiz özü şirin dilə yalvarır.[34]

Qazax aşıqlarının digər özünəməxsusluqlarından biri də solo ifaçılıqdır. Azərbaycan aşıqlarından ilk olaraq solo-saz ifaçılığı aşıq Ədalət Nəsibova məxsusdur. Bilirik ki, Aşıq Ə.Nəsibovun barmaq imkanları səs imkanlarından daha yüksəkdir. Onun ifa tərzi ilk sazı dindirəndən tanınır. Ondan sonra solo-saz ifaçılığı bir çox aşıqlar, eləcə də, aşıq Əmrah Gülməmmədov davam etdirmişdir. Müasir aşıqlardan Aşıq Məhəmmədəli Məşədiyevi, Aşıq Eldarı nümunə göstərmək olar. Qeyd edim ki, hər ikisi Aşıq Ədalət Nəsibovun şəyirdləridir.

Üçüncü fəslin dördüncü yarımfəsli "*Qazax aşıqlarının yaradıcılığında nağıl-dastan"* adlanır. Azərbaycan şifahi xalq ədəbiyyatında epik növə daxil olan janrların hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Ta qədimlərdən başlayaraq xalqın arzu və istəkləri daha dərin şəkildə bu janrlarda öz əksini tapmışdır. Epik növ xalqın bədii yaradıcılığından başqa, eyni zamanda onun tarixi olmuşdur. Məlum olduğu kimi, "dastan" sözü hadisə, əhvalat, təsvir, tərif, tərcümeyi-hal, bəzən də tarix kimi mənalarda işlənmiş, sonralar isə hekayətnamələr adlandırılmışdır. "Dədə Qorqud kitabı"nda bu, "boy" adlanır. Aşıqlar, onların dinləyiciləri isə buna "nağıl" adı vermişlər. El arasında aşığı imtahana çəkəndə "dastan ehtiyatının" xüsusi rolu olmuşdur.

[34] Söyləyici: Aşıq Məhəmmədəli Məşədiyev 1961-ci il təvəllüdlü.



Bu yarımfəsildə Qazax aşıqlarının nağıl-dastanları da təhlil edilmişdir. Bu bölgənin aşıqlarından Mirzə Səmədin "Sarıtel", "Boxça çiçəyi", Aşıq Avdının "Avdı və Mehriban", Zəkəriyyə Mehmanın (Məmmədov Zəkəriyyə) "Villinin dastanı", Şair Temrazın "Güləbəyimin nağılı", Aşıq Cəlal Qəhrəmanovun "Qaratel və Aşıq Cəlal", "Kəməroğlu Kərəm və Qəmər xanım", Aşıq Sadıq Avdıoğlunun "Tahir və Zöhrab", Aşıq Şəadət Gülməmmədovun "Aşıq Şəadət və Ayna xanım", "Ələmdar və Gülnaz" nağıl-dastanları mövcuddur. Qazax mahalında aşıqların dilində məclislərdə söylənilən dastanlardan biri də ustad aşıq Avdının "Avdı və Mehriban" dastanıdır. Nakam sevgi mövzusunda yaradılan bu dastandakı hadisələr XX əsrin otuzuncu illərində baş vermişdir.

Şair Temraz Novruzlunun "Güləbəyimin nağılı" adlı kiçik həcmli nağıl-dastanı isə aşığın başından keçənlərin bilavasitə nəsr və nəzmlə söylənməsi olub daha çox real hadisələrdən bəhs etməkdədir. Əlimizdə olan nümunəyə əsasən, nağıl-dastan həcmcə kiçikdir və əslində nağıl termini anlamından fərqli olaraq reallığı əks etdirir. Strukturu baxımından nağıl-dastanlar klassik dastanlardan təhkiyənin özünəməxsusluğu və canlılığı ilə seçilir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir. Tədqiqat nəticəsində əldə olunan qənaət budur ki, Azərbaycan aşıq sənətinin bütün ideya zənginliyini və sənət meyarlarını Qazax aşıq və el şairləri dolğun əks etdirmişlər. Bu səbəbdən də onların həyat və sənət bioqrafiyasının monoqrafik planda öyrənilməsi Azərbaycan folklorşünaslığı üçün aktual məsələlərdən biridir. Beləliklə, Qazax bölgəsi ayrıca aşıq mühit kimi tədqiqata cəlb olunaraq, milli folklorşünaslıqda bölgənin indiyədək geniş araşdırılmayan aşıqları və el şairinin yaradıcılığı təhlil edilmişdir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı kitab və məqalələrdə öz əksini tapmışdır:**


1. Şair Qulu. Karvanlar qocalır, yollar qocalmır / toplayıb tərtib edəni Qəsəbova İlhamə, Bakı: Nurlan, 2007, 262 s.
2. Qaracayev H. Dağ ceyrana, ceyran dağa yaraşır / toplayıb tərtib edəni, ön sözün müəllifi Qəsəbova İlhamə. Bakı: Nurlan, 2008, 144 s.
3. Hacı Qaracayevin həyat və yaradıcılığı // Elmi axtarışlar. Folklor İnstitutu, II toplu. Bakı: 2008, s.48-58
4. XX əsr Qazax aşıqları və el şairləri / toplayıb tərtib edəni Qəsəbova İlhamə. Bakı: Nurlan, 2009, 707 s.
5. Qazax aşıq və el şairlərinin yaradıcılığında mövzu dairəsi // Folklor və etnoqrafiya. I buraxılış, 2011, s.203-207
6. Qazax və Borçalı aşıqlarının yaradıcılığında deyişmə // Axtarışlar. AMEA Naxçıvan bölməsi. III (5) buraxılış, Naxçıvan, 2012, s.73-79
7. Ustad-şəyird münasibəti // Axtarışlar. AMEA Naxçıvan bölməsi, IV (6) buraxılış. Naxçıvan: 2012, s.23-31
8. Qazax və Borçalı (türkdilli gürcü) aşıqlarının yaradıcılığında deyişmə // "Qafqaz xalqlarının folkloru və linqvokulturologiyası" mövzusunda Beynəlxalq elmi simpoziumun materialları. Tbilisi: 2012, s.190-196
9. Qazax aşıq və el şairlərinin yaradıcılığında mövzu dairəsi // Dil və ədəbiyyat. Bakı: BDU, 2013, 2 (86) buraxılış, s.203-207
10. Классическая поэтическая традиция в Казахской ашугской среде XX века // Ученые записки Таврического Национального Университета имени В.И.Вернадского. серия Филология. Социальные коммуникации. Том 26 (65) № 1,ч.1. Симферополь: 2013, стр.198-202
11. Aşıq mühiti kontekstində Qazax aşıqlarının özünəməxsusluqları // Filologiya məsələləri, № 9, 2013, s.379-385
12. Qazax aşıqlarının məxsusi saz havacatları // Filologiya məsələləri, № 10, 2013, s. 446-451




**Ильхама Джалал кызы Гасабова**

**Казахская ашугская среда XX века**
**Резюме**


Диссертация состоит из введения, трех глав, вывода и списка литературы.

Во **"Введении"** обосновывается актуальность темы исследования, показывается объект и предмет работы, цели и задачи, научные новшества, теоретические и методологические основы, теоретическая и практическая значимость, дается информация об апробации и структуре.

Первая глава диссертации называется **«Роль Казахских ашугов в формировании Гянджабасарской ашугской среды»** и состоит из трёх частей, в которых исследуются такие вопросы как *"Своеобразие Казахских ашугов и народных поэтов в контексте ашугской среды", "Творческие связи с Гейчинской ашугской средой", "Творческие связи с Борчалинской ашугской средой"*.

Вторая глава под названием **"Традиции классического искусства в творчестве Казахских ашугов и народный поэтов"** состоит из четырех частей и посвящена изучению *"Классическая поэтическая традиция в творчестве Казахских ашугов XX века", "Религиозные мотивы в творчестве Казахских ашугов и народных поэтов", "Тематика творчества Казахских ашугов и народных поэтов", "Взаимоотношения учитель-ученик"*.

Третья глава, в которой в четырех частях исследуются *"Жанровые особенности творчества Казахских ашугов и народных поэтов", "Языковые-стилистические особенности творчества Казахских ашугов", "Своеобразные хаваджаты–сазовые лады Казахских ашугов, "Сказка-дастан в творчестве Казахских ашугов"*, называется **"Своеобразные особенности художественного мастерства Казахских ашугов и народных поэтов".**

В **заключении** обобщены выводы исследования и определены направления дальнейшего изучения темы.

**Ilhame Jalal kizi Gasabova**

**Gazakh ashug sphere of the 20$^{th}$ century**
**Summary**

The dissertation work consists of the introduction, three parts, the conclusion and the list of used literature.

In the **introduction** the actuality of the investigation is shown, the history of the investigation is studied, the object of the investigation is given, the scientific methodology, aim and scientific innovations are also investigated.

The first part of the dissertation work is called **"The role of Gazakh ashugs in the creation of Ganjabasar ashug sphere"** and consists of three chapters such as *"Peculiarities of Gazakh ashugs and folk poets in the context of ashug sphere", "The relation of Goycha ashug sphere with art", "The relation of Borchali ashug sphere with art".*

The second part called **"Classic art traditions in the activity of Gazakh ashugs and folk poets"** also consists of four chapters such as "*Classical poetic tradition in the 20th century Gazakh ashug activity", "Poems with religious motives in the activity of Gazakh ashugs and folk poets", "Subject in the activity of gazakh ashugs and folk poets", "The attitude of master and disciple".*

The third part which consists of four chapters such as "*Genre peculiarities in the activity of Gazakh ashugs and folk poets", "The language-style characters in the activity of Gazakh ashugs", "Saz melodies belonging to Gazakh ashugs"* is called "**The literary mastering peculiarities of Gazakh ashug and folk poets".**

In the **conclusion** the results are summarized and the future directions of the investigated subject are shown.



Kağız formatı: 60/84 1/16
Pulsuzdur
Tiraj: 100 nüsxə

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**ИНСТИТУТ ФОЛЬКЛОРА**

***На правах рукописи***

**ИЛЬХАМА ДЖАЛАЛ кызы ГАСАБОВА**

# КАЗАХСКАЯ АШУГСКАЯ СРЕДА XX ВЕКА

**5719.01 – Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по филологии**

**БАКУ – 2014**